*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (1) 2024*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:15.01.2024*
*Kabul tarihi |Accepted:11.02.2024*
*Yayın tarihi |Published:25.02.2024*

**Ceyhun Hüseynov**

*https://orcid.org/0009-0002-8549-5403*
*Doctoral student of the Institute of History and Ethnology named after A.A. Bakikhanov, Azerbaijan, ceyhunh137@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Hüseynov, C. (2024).XIX əsrin sonu XX əsrin əvvəllərində Şimali Azərbaycanda həyata keçirilmiş aqrar qanunların hazırlanmasının tarixi və mahiyyəti. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (1), 714-724.

# XIX əsrin sonu XX əsrin əvvəllərində Şimali Azərbaycanda həyata keçirilmiş aqrar qanunların hazırlanmasının tarixi və mahiyyəti

***Xülasə***

*Məqalədə Şimali Azərbaycanda çarizmin ağalığı dövründə həyata keçirilmiş aqrar islahatların dövlət kəndlilərinin torpaq mülkiyyət münasibətlərini tənzimləmək məqsədilə verilməsindən bəhs olunur. Məqalədə qeyd olunur ki, çarizm ilk illərində yerli idarəçiliyə toxunmamağa, onu özünün müstəmləkəçi maraqlarına, bu məqsədlə qarşısına qoyduğu məsələlərin həllinə uyğunlaşdırmağa çalışmışdı. Vaxt keçdikcə isə çarizm ümumrusiya qanunvericiliyini tədricən burada da geniş şəkildə tətdiq etməyə başlayır. Sosial-iqtisadi münasibətlərin inkişafı, inzibati, məhkəmə-hüquq islahatlarının həlli çar hökümətinin bu münasibətlər qrupunu tənzimləyən yeni normativ aktlar qəbul etməsi zərurətini yaradır. Bu, bir tərəfdən onun ümumimperiya idarəçilik sisteminə daxil edilməsinə, digər tərəfdən də burada imperiyanın müstəmləkə idarəçilik aparatının təşkilini həyata keçirilməsinə xidmət etməli idi. Vurğulanır ki, XX əsrin əvvəlləri çarizmin Şimali Azərbaycanda daxili həyatının bütün sahələrində, o cümlədən də aqrar sahədə müstəmləkəçi siyasətinin son dərəcə gücləndiyi dövrdür. Bu dövrdə Rusiya imperiyasında kapitalizmin inkişafı, onun dərininə və eninə inkişafı çarizmin ucqar əyalətlərinə münasibətdə yeritdiyi aqrar siyasətinə də öz təsirini göstərdi. Bu dövrdə Şimali Azərbaycanda da aqrar sahədə ciddi dəyişikliklərin edilməsi zərurəti meydana çıxır. Belə vəziyyət Cənubi Qafqazda kəndlilərin müvəqqəti mükəlləfiyyətli vəziyyətinin ləğvi məsələsini zəruri edir. Nəticədə XX əsrin əvvəllərində bu istiqamətdə islahatlar həyata keçirilir ki, hesab edirik ki, bu islahatlar çar hakimiyyətinin inqilab qorxusu qarşısında atdığı məcburi addımlar olmuşdur. Bu səbəbdən də həmin dövrdə çarizmin aqrar siyasətinin araşdırılması həm də daxili siyasi vəziyyətin gərginləşməsinin başlıca səbəblərinin müəyyən edilməsi baxımışdan da xüsusi aktuallıq kəsb edir.*

***Anahtar kelimeler**: Təhkimçilik, torpaq sahibliyi, kəndli, vergi, aqrar siyasət*

## Late 19th - early 20th centuries, the history and nature of the preparation of agricultural laws in North Azerbaijan

***Abstract***

*The article discusses the agrarian reforms implemented in North Azerbaijan during the tsarist period in order to regulate the land ownership relations of the state peasants. The article states that in the first years tsarism tried to adapt local government to colonial interests without touching it, and to ensure the solution of the problems it set before it for this purpose. In time, tsarism began to apply all-Russian laws here on a large scale. The development of socio-economic relations, the solution of administrative, judicial and legal reforms necessitated the tsarist government to adopt new normative regulations governing this group of relations. This had to serve, on the one hand, to incorporate it into the general administrative system of the empire and, on the other hand, to implement the organization of the imperial colonial administrative apparatus here. It is emphasized that the beginning of the 20th century was the period when the colonial policy of tsarism in North Azerbaijan was extremely strong in all spheres of domestic life, including agriculture. The development of capitalism in the Russian Empire during this period, its deep and widespread development, also had an impact on the agricultural policy of tsarism towards remote provinces. During this period, the need for serious changes in agriculture also arose in North Azerbaijan. Such a situation necessitated the abolition of the temporary debtor status of peasants in the South Caucasus. As a result, reforms were carried out in this direction at the beginning of the 20th century and we believe that these reforms were necessary steps taken by the tsarist government in the face of the fear of revolution. Therefore, the study of the agrarian policy of tsarism at that time is of particular importance for identifying the main reasons for the tension of the internal political situation.*

***Keywords:** Serfdom, land ownership, peasantry, taxation, agricultural policy*

### Giriş

Azərbaycanın quzey qisminin çar Rusiyası tərəfindən istila edilməsi sadəcə ölkəmizin və soydaşlarımızın bölünməsi, paralanmış hissələrin fərqli dövlətçilik sistemlərində yer alması anlamına gəlmirdi. Bu işğal ilk növbədə Şimali Azərbaycandakı dövlətçiliyimizin məhv olunmasına, milli sərvətlərimizin uzun onilliklər boyunca Rusiya tərəfindən talan edilməsinə gətirib çıxarmışdı. Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyasına qatılmasının guya ki, xalqımızın mədəni-milli inkişaf, yeni iqtisadi münasibətlərin təşəkkülü, burada milli-siyasi şüurun formalaşması baxımından obyektiv olaraq yeni imkanlar da ortaya çıxarması barəsindəki sovet tarixşünaslığının qeyri-elmi iddialarına baxmayaraq. Bu işğal xalqımıza və vətənimizə dəhşətli

zərbələr vurmuşdu. Şimali Azərbaycan iqtisadiyyatının ümumimperiya iqtisadi məkanına inteqrasiya olunması obyektiv olaraq, kapitalist dəyişiklikləri dönəminə qədəm qoyulması da iqtisadi və sosial həyatda səciyyələndirilə bilər. XIX-XX əsrin əvvəlləri Azərbaycan kəndi üçün də olduqca ciddi dəyişikliklər kimi əhəmiyyətli bir dönəm idi. Ölkəmiz ağrılı-acılı, uzunsürən, eyni zamanda mahiyyət səciyyəsi kəsb edən aqrar dəyişikliklər dövrünə qədəm basmışdı. Bu, həm torpaq mülkiyyəti münasibətlərində, həm təsərrüfatçılıq forma və üsullarında, həm də zəif və qeyri-ardıcıl da olsa, təsərrüfat texnikasının yenilənməsində özünü büruzə verirdi. Qeyd eləmək lazımdır ki, çarizm işğalın ilk illərində yerli idarəçiliyə toxunmamağa, onu özünün müstəmləkəçi maraqlarına, bu məqsədlə qarşısına qoyduğu məsələlərin həllinə uyğunlaşdırmağa çalışmışdı. Vaxt keçdikcə isə çarizm ümumrusiya qanunvericiliyini tədricən burada da geniş şəkildə tətbiq etməyə başlayır. Sosial-iqtisadi münasibətlərin inkişafı, inzibati, məhkəmə-hüquq islahatlarının aparılması zərurəti, yerli əhəmiyyətli aqrar, vergi, təsərrüfat quruluşu məsələlərinin həlli çar hökumətinin bu münasibətlər qrupunu tənzimləyən yeni normativ aktlar qəbul etməsi zərurətini yaradır.

## 1. İslahatın hazırlanması

1896-cı ildə dövlət kəndlilərinin torpaq məsələsi haqqında qanun layihəsi hazırlamaq üçün xüsusi komissiya yaradıldı. Komissiya öz fəaliyyətində 1884-1887-ci illərdə dövlət kəndlilərinin təsərrüfat həyatına dair materiallara əsaslansa da, qanun layihəsini hazırlamaq çətin idi. Əvvəlcə mərzləşdirmə aparmaq, kəndli icmasının və torpaq mülkiyyətçilərinin istifadəsində olan torpaqların sərhədlərini müəyyən etmək lazım idi. Qeyd etmək lazımdır ki, 29 iyun 1861-ci il tarixli "Zaqafqaziya ərazisində torpaqların sərhədlərinin müəyyən edilməsi haqqında" əsasnamə kənd icmalarının istifadəsində olan və olmayan dövlət torpaqlarının sərhədlərinin müəyyən edilməsi qaydasını müəyyən edir. Bu müddəaya əsasən hər bir kənd icmasının bilavasitə istifadəsində olan torpaqlar bu icma üçün ayrılır və onun hüdudları müəyyən edilir. Amma bu müddəalar kağız üzərində qaldı.

Torpağa sahiblik hüququnu təsdiq edən sənədin olmaması müsəlman əyalətlərində torpaq mülkiyyət münasibətlərinin tənzimlənməsinə maneçilik törədən başlıca səbəblərdən biri idi. Torpaq sahələrinin xırda hissələrə bölünməsi, sahələrin qarışıq yerləşməsi də çoxsaylı torpaq mübahisələrinin meydana çıxmasına səbəb olmuşdu. Bu sahədə qayda qanunun yaradılması, torpaqların mərzləşdirilməsi məqsədilə hələ 1861-ci ildən işlərə başlanılsa da ondan sonra keçən müddətdə ciddi işin görülmədiyi, 1886-ci ilə dair məlumatlarda torpaqların cəmi 4 faizinin mərzləşdiyi bəlli olur. Yerdə qalan torpaqların isə sahiblik hüququnu təsdiq edən sənədlərin olmaması səbəbindən belə vəziyyət özbaşınalıqlara səbəb olurdu (Tumanov, 1900). Yeni

tənzimləmə 2 iyun 1887-ci ildə qəbul edildi və əvvəlki tənzimləmədən geriyə doğru bir addım idi. Xüsusi rayonların, o cümlədən onlarla kəndin və xeyli miqdarda dövlət torpaqlarının yaradılması nəzərdə tutulurdu və onların arasında sərhədlər müəyyən edilirdi (Polnoye sobraniye zakonov Rossiyskoy Imperii. Tret'ye sobraniye (1881-1913), 1887). Belə vəziyyət kəndlilər arasında narazılığın artmasına səbəb oldu.

Bu məqsədlə 1897-ci il mayın 26-da qanun qəbul edildi və ona əsasən, 1887-ci il qanununun qəbuluna qədər mövcud olan mərzləşmə qaydası bərpa edildi. Əgər kəndli icmasının istifadə etdiyi torpaq bu kənddə yaşayan dövlət kəndliləri üçün nəzərdə tutulduğundan çox idisə, bu torpaqların artıqlığını kəsmək qadağan idi (Polnoye sobraniye zakonov Rossiyskoy Imperii. Tret'ye sobraniye (1881-1913), 1897). Bundan sonra torpaq idarəçiliyi haqqında Əsasnaməni tərtib etməyə başladılar.

Şimali Azərbaycanda həyata keçirilmiş növbəti aqrar islahatı dövlət kəndlilərinin torpaq mülkiyyət münasibətlərini tənzimləmək məqsədilə verilmiş 1900-cü il 1 may tarixli aqrar qanunu olur. 1 may 1900-cü il tarixli "Zaqafqaziya diyarının dövlət kəndlilərinin torpaq idarəçiliyi haqqında" qanun 26 may 1897-ci il tarixli qanunun müddəalarını təsdiq etdi. Dövlət kəndlilərinin kənd icmasına heç bir mübahisəsiz uzun müddət istifadələrində olan torpaqlar verilir. Kəndli icmalarının yığıncaqlarında səsvermə hüququ olan ailə başçılarının 2/3-nin razılığı ilə icma torpaq istifadəsini həyətyanı (klan) torpaqlarla əvəz etmək hüququ verilmişdir. Qeyd etmək lazımdır ki, Çar hakimiyyət orqanları dövlət kəndində aqrar islahatın layihəsini hazırlamamışdan qabaq dövlət kəndlilərinin iqtisadi məişətini öyrənmək məqsədilə 1884-cü ilin əvvəllərində bir qrup mütəxəssisi müəyyən edərək onlara ayrı-ayrı qəzalar üzrə dövlət kəndlilərinin torpaqla hansı səviyyədə təmin olunması, meşələrdən və otlaqlardan istifadə məsələlərini öyrənməyi həvalə etdi. Məhz həmin mütəxəssislərin topladıqları məlumatlar 1885-1887-ci illərdə Tiflisdə yeddi cilddən ibarət "Zaqafqaziya ölkəsi dövlət kəndlilərinin iqtisadi məişətini öyrənmək üçün materiallar" adı ilə nəşr olundu (İsmayılov, 2008). Dövlət kəndliləri Cənubi Qafqazın vergi ödəyən əhalinin böyük hissəsini təşkil edirdi. Çar hökuməti açıq hərrac yolu ilə torpaqları kəndlilərə, kəndli icmalarına və birliklərinə icarəyə verirdi. Dövlətə məxsus olan və kəndli icmalarının istifadəsində olan torpaqlar dövlət torpaqları adlanmaqla hər 3-4 ildən bir kəndli icma üzvlərinin yığıncağında dövlət kəndliləri arasında (ailələrin sayına görə) yenidən bölüşdürülürdü. Bu proses (yəni payların bərabər bölgüsü) kəndli islahatlarından sonra pozulur.

1873-cü il kameral siyahıyaalınmasına görə Cənubi Qafqazın 5 quberniyasında – Bakı, İrəvan, Yelizavetpol, Tiflis və Kutaisi quberniyalarında beləlіrinin sayı hər iki cinsdən olmaqla 1444991 nəfər idi. 1884-1885-ci illərdə isə onların sayı artaraq 1671229 nəfərə çatmışdı. Qeyd olunur ki, XIX əsrin 80-cı illərin ortalarında Cənubi Qafqazda kifayət qədər torpaqla təmin olunmayan 600-800 min dövlət kəndlisi var idi. Başqa sözlə desək dövlət kəndlilərinin yarıya qədəri torpaq çatışmazlığından əziyyət çəkirdi (Antelava, 1952). 1892-ci ilin oktyabrında əkinçilik və dövlət əmlak naziri Ostrovskinin təklifi ilə nazirliyin Qafqazdakı səlahiyyətli nümayəndəsi Y. S. Medvedyevin başçılığı ilə Tiflisdə komissiyanın təşkil olunması barədə qərar verilir. Komissiyanın üzvlüyünə daxili, hərbi, maliyyə, ədliyyə, dövlət nəzarəti nazirliklərinin və Qafqaz canişinliyinin nümayəndələri daxil edilmişdilər. Komissiya 1993-cü ilin aprelindən fəaliyyətə başlayır. Komissiyanın fəaliyyətinin nəticəsi olaraq Medvedyev tərəfindən "Cənubi Qafqaz diyarının beş quberniyasında dövlət kəndlilərinin torpaq quruluşunun əsasları haqqında qeydlər" hazırlanır (Antelava, 1952). Komissiya tərəfindən hazırlanmış qeydlərdə göstərilirdi ki, bütün qəzalarda tamamilə torpaqsız kəndli icmaları ilə yanaşı, torpaq çatışmazlığından korluq çəkən, hətta artıq torpaqları olanlar da var. Komissiyanın sədri Medvedyev torpaqsız və aztorpaqlı kəndliləri boş olan xəzinə torpaqları hesabına təmin etmək təklifini irəli sürürdü. Bu səbəbdən də komissiyanın qeydlərində Cənubi Qafqaazın ayrı-ayrı yerlərində dövlət kəndlilərinə veriləcək pay torpağının yerli şərait nəzərə alınmaqla yuxarı həddi müəyyən olunurdu. Həmin ərazilər üç kateqoriyaya bölünürdü: Şərqi Zaqafqaziyanın yüksək dağlıq soyuq zolaqda yerləşən ərazilərində adambaşına 4-6 desyatin; mülayim iqlimli orta zolaq ərazilərdə 2-4; aşağı, isti iqlimli zalaqda yerləşən ərazilərində isə 0,75-2 deyatin təşkil edirdi. Qeydlərdə dövlət kəndliləri üçün ayrılacaq meşə sahələrinin də ölçüsü müəyyən olunurdu. Bunun müqabilində kəndlilər dövlətə vergi ödəməli idilər. Onun ən yuxarı ölçüsü meşələrin zənginliyindən asılı olaraq tüstübaşına 1-16 desyatin, adambaşına isə desyatinin 7-də birindən 2,5 desyatinə qədər dəyişirdi. Eyni zamanda Medvedyev hesab edirdi ki, kəndli təsərrüfatı torpaqla xüsusi mülkiyyət hüququnda deyil, daimi istifadə hüququnda təmin olunmalıdır (Antelava, 1952). Medvedyevin hazırladığı "Qeydlər" komissiya tərəfindən 1896-cı ilin əvvəllərində müzakirə edilərək onun əsasında qanun layihəsi hazırlandı. Bu layihə Tiflisdə Qafqazın Baş idarəsinin nəzdindədi Şurada 1897-ci ilin mayında müzakirə olundu. Şura üzvlərindən çoxu pay torpaqlarının bərabər surətdə bölünməsinin və aztorpaqlı kəndlilərə boş xəzinə torpaqları hesabına pay torpağı verilməsinin əleyhinə çıxdı. Onlar belə hesab edirdilər ki, azad xəzinə torpaqları hökumət orqanlrın tərəfindən yalnız bu yerlərə köçürülən rus kəndlilərinə verilməlidir. Əkinçilik və dövlət əmlakı naziri Yermolov qeyd etdi ki, Qafqazda rusların

yerləşdirilməsi mühüm dövlət əhəmiyyətli məsələdir və "bu vəzifə yerli əhalinin torpaqla təmin olunması məsələsindən irəlidə olmalıdır". Mərkəzi komissiya Qafqaz rəisinin göndərdiyi qanun layihəsini bəzi dəyişikliklər etdikdən sonra təsdiqə verdi. 1900-cü il mayın 1-də imperator II Nikolay "Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyaları dövlət kəndlilərinin torpaq təminatının mühüm əsasları"nı təsdiq etdi (İsmayılov, 2008).

## 2. 1900-cü il 1 may və 1903-cü il 21 aprel tarixli aqrar islahatlar

Cənubi Qafqazın xəzinə torpaqlarında məskunlaşan dövlət kəndlilərinin torpaq quruluşu ilə bağlı verilmiş 1900-cü il 1 may qanunu Cənubi Qafqazın Yelizavetpol, Bakı, İrəvanla yanaşı azərbaycanlı əhalinin yaşadığı Tiflis quberniyasını və Kutaisi quberniyasını da əhatə edirdi. Həmin qanuna görə aşağıdakı başlıca qaydalar müəyyən edilirdi: dövlət kəndlərinin kəndli yığıncaqlarına səs hüququ olan təsərrüfatların üçdə ikisinin razılığı ilə icma mülklərinin həyətyanı torpaqlarla əvəz etməyə icazə verilirdi; xəzinə torpaqlarının quruluşu ilə bağlı işlər yalnız tamamilə mərzləşdirilmiş və xəzinəyə keçmiş torpaqlarda aparılırdı; ayrılmış torpaq sahələri üzərində sahiblik hüququ verən xüsusi akt verlirdi; bu torpaqlardan istifadə müqabilində dövlət kəndliləri xəzinəyə feodal-torpaq rentası verməli idilər; yeni qaydalarla kəndlilərə zəruri ehtiyacları üçün meşə materiallarının ayrılması nəzərdə tutulurdu və meşələrdən istifadə üçün ayrıca vergi müəyyənləşdirilmişdi; xəzinə meşələrinin zəngin olduğu ərazilərdə meşə materiallarının buraxılmasının əvəzinə kəndlilərə meşə sahələri ayrılırdı; ayrılan torpaq və meşə sahələri bağışlana və girov qoyula bilməzdi; ayrı-ayrı kəndli təsərrüfatlarının istifadəsində olan həyətyanı sahələr yalnız həmin kənd icmasına daxil olan kəndlilərin xeyrinə bağışlana bilərdi; kilsələrə torpaq sahələrinin ayrılması isə bunun üçün boş xəzinə torpaqlarının olması şərti ilə ayrılırdı (Polnoye sobraniye zakonov Rossiyskoy Imperii. Tret'ye sobraniye (1881-1913), 1900). Bu qanunla eyni zamanda dövlət kəndlilərinin daimi istifadəsində olan xəzinə torpaqları üçün töycü mükəlləfiyyəti; bütün digər torpaqlar üçün torpaq vergisi; həmişəlik zemski vergisi müəyyən edilirdi. Töycü vergisinə, torpaq vergisindən başqa, dövlət kəndlilərinin xalis gəlirlərinin 10-12 faizi də daxil idi. Nəticədə hər ailədən yığılan və hər ev üzrə toplanan vergi 1900-cü ilə qədər bütün Qafqaz üzrə 1,5 mln manat təşkil edirdisə, qanunun verilməsindən sonra bu vergi iki dəfədən çox artdı (İsmayılov, 2008). 1900-cü il qanununun əhəmiyyəti onda idi ki, burada dövlət kəndliləri arasında torpaqların bərabər bölünməsi ideyasından imtina olunurdu ki, bu da icma torpaq mülkiyyətinə zərbə vururdu. Qanun ictimai münasibətlərin inkişafını əks etdirirdi, çünki bu dövrdə kəndlilərin təbəqələşməsi, kəndlərdə kapitalist münasibətlərinin inkişafının sürətlənməsi, torpaqların varlı kəndlilərin və

qolçomaqların əlində cəmləşməsi, kəndlilərin mülkiyyətindən məhrum edilməsi yoxsul və orta kəndlilərin torpaqsızlaşması və onların muzdlulara - kənd proletariatına çevrilməsi baş verdi.

Dövlət kəndlilərinin torpaqsızlaşmasının əsas səbəblərindən biri kəndli torpaqlarının bəylərin və digər torpaq sahibləri tərəfindən zəbt edilməsi idi. Dövlət mülkiyyətində olan pay torpaqlarının geniş şəkildə zəbt edilməsinin əsas səbəbləri aşağıdakılar idi: dövlət idarələrində xəzinənin torpağa sahiblik hüququnu təsdiq edən zəruri sənədlərin olmaması; torpaqların mərzləşdirilməməsi; torpaq mübahisələri məsələsində yerli polis və məhkəmə məmurlarının vicdansızlığı; müxtəlif saxta sənədlər düzəltməklə torpaq zəbtinin asan olması və s. (Gasanov, 2007). 1 may 1900-cu ildə verilmiş qanun çarizmin və rus burjuaziyasının mənayefinə uyğun şəkildə Cənubi Qafqazda xəzinə torpaqlarında yaşayan dövlət kəndlilərinin istifadəsində olan torpaqları dövlət mülkiyyəti elan etmişdir. Qanun dövlət kəndlilərinin istifadəsindəki torpaqlar üzərində xəzinə mülkiyyətinə toxunmamışdı. Beləliklə, imperiyanın çox hissəsində ləğv edilən feodal istehsal münasibətləri Cənubi Qafqaz dövlət kəndində saxlanılmışdır. Kəndlilərin istifadəsindəki bütün torpaqlar onların ixtiyarında qalmışdır. Belə ki, qanunun maddələrindən birində dövlət kəndlilərinin yalnız pay torpaqlarının istifadəçisi olması nəzərdə tutulurdu ki, bu da feodal asılı münasibətlərin saxlanması demək idi (İsmayılov, 2008). 21 aprel 1903-cü ildə 1900-cu il qanununu inkişaf etdirən və konkretləşdirən qaydalar qəbul olunmuşdur. Bu qanunla pay torpaqlarından istifadə hüququ olan kəndlilərin sayı xeyli azaldılırdı. Bu, minlərlə kəndlinin tamamilə torpaqsız qalması və ya pay torpaqlarınınn müəyyən hissəsindən məhrum olması demək idi. Qanuna görə iki, yaxud daha artıq icmalara ümumi torpaq sahəsinin ayrılmasına o halda icazə verilirdi ki, bütün torpaqlar və ya əkin sahələrinin bir hissəsi bu kəndlərin ümumi istifadəsində olsun. Bu zaman ümumi torpaq sahəsini almaq istəyən kəndlərin yığıncaq üzvlərinin üçdə ikisinin lehinə səs verməsi də vacib idi. Ümumi sahələrin bölünməsi üçün torpaq sahələrinin sərhədlərinin düzəldilməsi, onların daha münasib şəklə salınması məqsədilə icmalar arasında kənd yığıncaqlarının qərarı ilə torpaqların dəyiş-düyüş edilməsinə icazə verilirdi. Əgər bunun üçün icmaların razılığı olmasaydı torpaqların sərhədlərinin düzəldilməsi məqsədilə xırda sahələrin məcburi dəyiş-düyüş edilməsinə də icazə verilirdi Belə halda dəyişdilən sahələrin sahəsi 5 desyatindən çox olmamalı idi. Üzümlüklər, meyvə bağları, süni şəkildə suvarılan torpaqlar, meşə kənarları, kəndlilər tərəfindən qurudulmuş bataqlıqlar, onların saldığı meyvəliklər, mal-qara tövlələri, su quyuları icma üzvlərinin icazəsi olmadan sərhədlərin düzəldilməsi məqsədilə zorla dəyişdirilə bilməzdi (Polnoye sobraniye ob"yedineniya Rossiyskoy imperii. Tret'ye sobraniye (1881-1913), 1903).

### 3. İslahatların nəticələri. Yeni aqrar qanunlar

1903-cü il aqrar qanununda çarizmin aqrar siyasətinin mürtəce xarakteri özünü büruzə verir. Belə ki, qanunun müstəmləkə mahiyyəti onun tətbiqi zamanı xəzinə torpaqlarında məskunlaşmış yerli əhali ilə rus köçkünləri arasında ayrı seçkiliyin edilməsində özünü göstərir. Belə ki, qanunun 5-ci bəndində bu qaydalarla səlahiyyətli orqanların icazəsi ilə dövlət torpaqlarında salınmış kəndlər və qəsəbələrin sakinlərinə torpaqların ayrılması nəzərdə tutulduğu göstərildiyi halda qanunun 7-ci bəndində göstərilir ki, bu qaydalar Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin razılığı əsasında səlahiyyətli orqanların icazəsi olmadan xəzinə torpaqlarında məskunlaşan rus köçkünlərinə aid edilirdi (Polnoye sobraniye ob''yedineniya Rossiyskoy imperii. Tret'ye sobraniye (1881-1913), 1903). Qanunun meşə sahələrinin ayrılması və ona görə verginin müəyyən edilməsi ilə bağlı qaydalarında bəzi icmalar üçün meşə materiallarının buraxılışının saxlanması yaxud onun meşə sahələrinin ayrılması ilə əvəz olunması Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin razılığı əsasında müəyyən olunurdusa, İrəvan quberniyasında belə əvəzlənməyə icazə verilmirdi (Polnoye sobraniye ob''yedineniya Rossiyskoy imperii. Tret'ye sobraniye (1881-1913), 1903). ki, bu faktın özü də qaydaların müstəmləkəçi mahiyyətindən xəbər verir. Qeyd olunmalıdır ki, 1900-cü ilin 1 may və 1903-cü ilin 21 aprel əsasnamələri gözlənilən nəticəni vermədi, bu dəyişikliklər dövlət xəzinə kəndlərində vergi və mükəlləfiyyət sistemini ağırlaşdıraraq mürəkkəbləşdirdi və kəndlilərin əsarəti daha da qüvvətləndirdi. XX əsrin əvvəllərində aqrar sahədə verilmiş qanunlar dövlət kəndlilərinə aid edildiyi üçün sahibkar kəndlilərinin torpaq-mülkiyyət münasibətləri məsələsi tənzimlənməmiş olaraq qalmışdı. Bu səbəbdən də yaranmış vəziyyət sahibkar kəndlilərinin arasında da mükəlləfiyyətli münasibətlərin ləğv edilməsi məsələsini actual etmişdi.

XX əsrin əvvəllərində Cənubi Qafqaz diyarında bütün kəndli əhalisinin 1/3-i, təxminən həmin vaxta kimi 706.622 hektar torpağı ala bilməyən 118.295 təsərrüfatın durumu acınacaqlı vəziyyətdə idi. Qafqaz canişini vəzifəsində Q .S. Qolitsını əvəz edən İ. İ. Vorontsov-Daşkov 1905-ci il oktyabrın 12-də çara təqdim etdiyi "Qafqaz diyarının idarəçiliyinə dair qeydlər"ində bölgədəki qeyri-sabit vəziyyətin başlıca səbəbini əvvəlki rəhbərliyinin zamanında aqrar məsələdə buraxdığı nöqsanlarla izah edirdi. O, əhali arasında narazılıqların səbəblərindən olan onların bəylərdən olan asılı münasibətlərin dərhal ləğv edilməsininin tərəfdarı olduğunu bildirirdi (Vsepodanneyshaya zapiska po upravleniyu Kavkazskim krayem grafa Vorontsova-Dashkova. 1907). Eyni zamanda, o, bəylərə kompensasiya ödənilməsini tamamilə zəruri hesab edərək 1905-ci il noyabrın 22-də o, Nazirlər Sovetinə dövlət xəzinəsindən sahibkarlara kompensasiya verilməsi şərti ilə torpaq

mülkiyyətçilərinin torpaqlarının kəndlilərə pulsuz verilməsini nəzərdə tutan qanun layihəsini təqdim etdi (Agadzhanyan, 2013). İmperiyanın əkinçilik naziri N. Kutler və maliyyə naziri İ.P. Şipovun qeydləri nəzərə alınaraq layihədə müəyyən düzəlişlər edilmiş və altı bənddən ibarət yeni layihə hazırlanır. Burada məcburi və ya asılı münasibətdə qalan kəndlilərə və dövlət köçkünlərinə sərəncam verildiyi gündən istifadələrində olan torpaqlara sənədlərlə müəyyən edilmiş hüdudlarda, belə sənədlərin olmaması və ya qeyri-dəqiqliyi şəraitində isə onların faktiki istifadəsində olan torpaqlarda mülkiyyət hüququ vermək nəzərdə tutulmuşdu. Fərman verildiyi gündən onların bütün məcburi və ya asılı münasibətləri dayandırılır, kəndlilər yuxarıda qeyd olunan torpaqlar üçün müəyyən olunmuş dövlət və zemstvo vergilərini ödəməli idilər. Qanun layihəsində bu məsələ ilə bağlı xüsusi sərəncam veriləné qədər kəndlilərin göstərilən kateqoriyaları üçün torpaq mülkiyyətçilərinin torpaqlarında yerləşən otlaqlardan və meşələrdən istifadə hüququnun, habelə torpaq mülkiyyətçilərinin kəndli torpaqlarında yerləşən otlaq və meşələrdən istifadə hüququnun saxlanılması, nəzərdə tutulurdu. Üçüncü bənddə erməni kilsəsinin asılı kəndlilərinin monastırın zəruri hallarda Qafqaz canişininə aztorpaqlı və torpaqsız kəndlərə boş dövlət torpaqları hesabına torpaq sahələri ayırmağa icazə vermək nəzərdə tutulurdu. Layihəyə görə torpaq sahiblərinə təzminat olaraq təxminən 30 milyon rubl ödənməli idi. Qanun layihəsi 1906-cı il aprelin 4-də Nazirlər Şurasının iclasında müzakirə edilsə də, islahatın həyata keçirilməsi üçün ayrılacaq məbləğin Dövlət Dumasında müzkirə olunmasının zəruriliyi səbəbindən layihə dumanın müzakirəsinə verilir (Agadzhanyan, 2013). Cənubi Qafqazda aqrar məsələnin həllinin vacibliyini dərk edən deputatlar N.S. Çxeidze, İ. Heydərov və E.P. Geqeçkorinin təşəbbüsü ilə Dumanın 34 deputatı Zaqafqaziya kəndlilərinin müvəqqəti mükəlləfiyyətli vəziyyətinin ləğv edilməsini nəzərdə tutan layihə irəli sürdülər. Canişinlik tərəfindən 1909-cu ilin əvvəlində hazırlanan qanun layihəsinin son variantı müzakirələrdən sonra Nazirlər Kabinetinin təsdiqinə təqdim edildi və 1911-ci ildə təsdiq olundu. Dövlət Duması və Dövlət Şurası tərəfindən də təsdiqlənən qanun layihəsini 1912-ci il dekabrın 20-də II Nikolay imzaladı. Qanun "Hökumətin yardımı ilə İrəvan, Yeıizavetpol, Bakı, Tiflis və Kutaisi quberniyalarında pay torpaqların satın alınması yolu ilə kəndlilərin mülkədarlar və sahibkarlardan olan müvəqqəti mükəlləfiyyətli münasibətlərinin ləğv edilməsi haqqında əsasnamə" adlanırdı (Polnoye sobraniye ob"yedineniya Rossiyskoy imperii. Tret'ye sobraniye (1881-1913). 1912). Qaydalara görə qanunla müəyyən edilmiş öhdəlikləri olmayan aşağıdakı torpaqlar sahibkarlara heç bir ödənc ödənmədən kəndlilərin xüsusi mülkiyyətinə verilirdi: həyətyanı sahələr; yuxarı təbəqəyə mənsub olmayanların bütün əmlakları; İrəvan quberniyası və Bakı quberniyasının Quba qəzasındakı bəy mülkləri; Yelizavetpol, Bakı və

Tiflis quberniyalarındakı xan, bəy, ağalar və məliklərin qeyri-münasib ərazilərdə yerləşən və sahibkarın xeyrinə vergi ödənməyən mülklər; yuxarı təbəqəyə mənsub olmayanların mülklərində salınmış bütün bağlar; yuxarı təbəqəyə mənsub olmayanların mülklərində 18 oktyabr 1879-cu ilə kimi salınmış bağlar; eləcə də kəndli mülklərində yerləşən, sahibkarların istifadəsində olmayan əkinə yararsız bataqlıq, qumluq, qayalıq, gilli yerlər (Polnoye sobraniye ob"yedineniya Rossiyskoy imperii. Tret'ye sobraniye (1881-1913). 1912).

**Sonuç**

XIX-XX əsrin əvvəlləri Azərbaycan kəndi üçün son dərəcə əhəmiyyətli bir dönəmi təmsil edir. Məhz bu zaman kəsiyində ölkəmiz ağrılı-acılı, uzunsürən, eyni zamanda mahiyyət səciyyəsi kəsb edən aqrar dəyişikliklər dövrünə qədəm basmışdı. Bu, həm torpaq mülkiyyəti münasibətlərində, həm təsərrüfatçılıq forma və üsullarında, həm də zəif və qeyri-ardıcıl da olsa, təsərrüfat texnikasının yenilənməsində özünü büruzə verirdi. Ümumrusiya bazarına cəlb olunma, XIX əsrin son rübündən etibarən tədrici kapitalist transformasiyalarına məruz qalma Azərbaycan kəndinin sadəcə aqrar deyil, bütövlükdə sosial simasını dəyişdirən amillər idi. Azərbaycanın rus işğallarınadək daxil olduğu islam sivilizasiyasına xas aqrar münasibətlər sisteminin mövcudluğu göstərilmiş, bu sistemin İslam dininin torpaq və mülkiyyətlə bağlı müddəalarından irəli gələn spesifik cəhətlərinə aydınlıq gətirilmişdir. Bəlli olduğu kimi, ölkəmizdə Avropaya xas olan həm torpaq üzərində qeyd-şərtsiz feodal mülkiyyətçilik institutuna, həm də həmin institutdan irəli gələn iyerarxik sosial strukturun – vassalitetin təşəkkülünə rast gəlmirik. Xanlıqlar dönəmində, əvvəlki yüzillərdə olduğu kimi, istər xan və mülkədar mülklərində, istərsə də tiul torpaqlarında feodalın özünün təsərrüfatı demək olar ki, yox idi. Bu baxımdan rus istilaları sözügedən sahədə köklü dəyişikliklərə yol açmışdı. Çarizmin ümumən müsəlman xalqlarını etibarsız sayması, güvənməməsi, üstəlik də Azərbaycanda bəzi xanların və bəylərin rus işğallarına qarşı müqavimətə faktiki başçılıq etməsi hökumət çevrələrini mütəmadi olaraq repressiyalara əl atmasına, müsadirələr keçirməsinə rəvac verirdi. Həyata keçirilən dəyişikliklərlə çarizm ilk növbədə yerli əsilzadələrə imtiyazlar verməklə Cənubi Qafqazda öz mövqelərini möhkəmləndirməyə çalışırdı. XX əsrin əvvəllərində, dövlət kəndlilərinin torpaq mülkiyyət münasibətlərini tənzimləmək məqsədilə verilmiş 1900-cü il 1 may tarixli aqrar qanunu, eləcə də həmin qanunu bir qədər də inkişaf etdirən 21 aprel 1903-cü il aqrar qanunları kəndlilərin durumunda elə də ciddi dəyişiklilərə gətirib çıxartmadı. Belə ki, burada dövlət kəndliləri arasında torpaqların bərabər bölünməsi ideyasından imtina olunurdu ki, bu da icma torpaq mülkiyyətinə zərbə vururdu. Qanun kəndlilərin

təbəqələşməsini, kəndlərdə kapitalist münasibətlərinin inkişafını, torpaqların varlı kəndlilərin və qolçomaqların əlində cəmləşməsini sürətləndirdi.

## Kaynaklar

Agadzhanyan, S. SH. (2013). Likvidnost' i rastvorimost': Zakon ot 20 dekabrya 1912 g. *Metamorfozy,* (4), 259–290.

Antelava, I. G. (1952). *Reforma zemel'nogo stroya gosudarstvennykh krest'yan Zakavkaz'ya v kontse XIX veka (dokumenty i materialy)*. Sukhumi, 3-4.

Gasanov, G. (2007). *Iz Istorıı Severnogo Azerbaydzhanskogo Sela V Kontse XIX* - Nachale Khkh Veka.

İsmayılov, M. (2008). *Azərbaycan tarixi.* (C IV). Elm.

*Polnoye sobraniye ob"yedineniya Rossiyskoy imperii. Tret'ye sobraniye (1881-1913). T. XXIII* (1903). chast' 1-ya, zakon 22822, 406-407.

*Polnoye sobraniye ob"yedineniya Rossiyskoy imperii. Tret'ye sobraniye (1881-1913). T. XXXII* (1912). chast' 1-ya, zakon 38539, s. 1687 g.

*Polnoye sobraniye zakonov Rossiyskoy Imperii. Tret'ye sobraniye (1881-1913).* T. VII (1887 g.). zakon 4523, 277-278.

*Polnoye sobraniye zakonov Rossiyskoy Imperii. Tret'ye sobraniye (1881-1913).* T. XVII (1897 g.). zakon 14150, s.315-319.

*Polnoye sobraniye zakonov Rossiyskoy Imperii. Tret'ye sobraniye (1881-1913). T.KHKH* (1900). chast' 1, zakon 18509, str. 389-391.

Tumanov, G. (1900). *Zemel'nyye voprosy i prestupnost' na Kavkaze.* Sankt-Peterburg.

*Vsepodanneyshaya zapiska po upravleniyu Kavkazskim krayem grafa Vorontsova-Dashkova.* (1907). 40–41, 48 Tiflis.